**ƏN ÇOX SORUŞULAN SUALLAR**

**(Təkrar ali və ya orta ixtisas təhsili)**

**Sual 1. Təkrar ali və ya orta ixtisas təhsilinə necə qeydiyyatdan keçməliyəm?**

Ali təhsil müəssisələrinə təkrar ali təhsil istiqaməti üzrə bakalavriat səviyyəsinə qəbul olmaq istəyən şəxslər ilk öncə **"portal.edu.az"** saytında qeydiyyatdan keçməlidir. Bunun üçün əsas səhifəyə daxil olaraq "**Qeydiyyat**" düyməsinə sıxıb uyğun səhifəyə keçid edin.

**Sual 2. Portalda artıq qeydiyyatım varsa, yenidən sistemdə qeydiyyat etməliyəm?**

Portalda artıq qeydiyyatınız varsa, yenidən qeydiyyatdan keçməyinizə ehtiyac yoxdur.

**Sual 3. Şifrəmi unutmuşam. Necə bərpa etməliyəm?**

Şəxsi kabinetə giriş zamanı şifrənizi unutduğunuz halda əsas səhifədən "Şifrəni unutdun?" düyməsinə klikləyin və açılan pəncərədə ilk öncə elektron poçt ünvanını daxil edin. Açılan növbəti pəncərədə mobil nömrənin son 4 rəqəmi daxil edin. Nömrəyə gələn təsdiq kodu daxil edildikdən sonra yeni şifrə təyin edilməlidir.

**Sual 4. Sistemə daxil olduqdan sonra hansı xidməti seçməliyəm?**

Sistemə daxil olduqdan sonra "Əlavə təhsilə elektron sənəd qəbulu" xidmətini seçməli və məlumatlarınızı formaya uyğun doldurmalısınız.

**Sual 5. Təkrar ali və ya orta ixtisas təhsilinə müraciət etmək üçün hansı qəbul xəttini seçməliyəm?**

AR vətəndaşları Qeyri-DİM xətti ilə, əcnəbilər isə digər müvafiq seçimləri etməlidirlər.

**Sual 6. Şəxsi məlumatlarımı necə doldurmalıyam?**

AR vətəndaşları üçün şəxsi məlumatlarınız avtomatik əks olunur. Təsdiq edirsinizsə, növbəti addımı sıxmalısınız. Əcnəbilər müvafiq xanalara şəxsi məlumatlarını daxil etməlidirlər.

**Sual 7. Şəxsi məlumatlarımdakı elektron poçt və mobil nömrə mənə aid deyil.**

Siz qeydiyyatdan keçdiyiniz zaman istifadə etdiyiniz mobil nömrə və elektron poçt şəxsi məlumatlarınızda əks olunmuşdur.

**Sual 8. Qəbul məlumatlarımı necə daxil etməliyəm?**

Qəbul olmaq istədiyiniz təhsil pilləsi, təhsil səviyyəsini, müəssisəni, ixtisası, təhsilalma formasını və ödəniş formasını seçməlisiniz. İxtisas şifrəsi avtomatik əks olunur.

**Sual 9. Sənədlərimi hansı formatda əlavə edim? Tək-tək bir neçə səhifə yüklənmir.**

Sənədlərinizi pdf formatında, hamısını bir faylda əlavə etməyiniz məsləhət görülür. Bir neçə səhifəni eyni xanaya əlavə edə bilməyəcəksiniz. Doldurulması vacib sənədlər xanası müraciət et düyməsinə sıxdıqda qırmızı rəng alır.

CamScanner ile tarandı

**Sual 10. Hansı xanalar məcburidir?**

Müraciət et düyməsini sıxdıqda qırmızı rəng alan bütün xanalara tələb olunan sənədi əlavə etməlisiniz.

**Sual 11. Əlavə sənədlər əlavə etmək istəyirəm, amma xana sayı azdır.**

Digər sənəd xanasının yanındakı + düyməsinə sıxmaqla xana sayını artıra bilərsiniz.

**Sual 12. Sənədlərimin qəbul edilib-edilmədiyini necə öyrənəcəm?**

Bu barədə müraciət etdiyiniz müəssisə sizə sistem və sms vasitəsilə məlumat göndərəcəkdir. Şəxsi kabinetinizi davamlı şəkildə izləməyiniz xahiş olunur.

**Sual 13. Hazırda vətəndaş sonuncu kurs tələbəsidirsə, diplom yerinə nə yükləməlidir?**

Əgər təhsil müəssisəsini cari ildə bitirmisinizsə və diplomunuzu əldə etməmisinizsə, bitirdiyiniz təhsil müəssisəsinin təqdim etdiyi bitirmə barədə arayışı yükləyə bilərsiniz.

**Sual 14. Məzun olub, diplomu olmayan vətəndaşlar diplom yerinə nə yükləməlidir?**

Məzun olduqları müəssisədən bitirmə haqqında arayış alıb, skan versiyada yükləməlidir.

**Sual 15. Əvvəlki təhsil məlumatını necə daxil edim?**

Orta ixtisas təhsili pilləsi və ya bakalavriat üzrə təhsil aldığınız əvvəlki təhsiliniz üzrə diplom məlumatlarını daxil edirsiniz. Müvafiq məlumatlar seçimdə çıxmadıqda, **Digər** seçməklə əl ilə daxil edə bilərsiniz.

**Sual 16. Eyni vaxtda iki müəssisəyə müraciət göndərə bilərəmmi?**

Bəli, eyni zamanda bir neçə müraciət göndərilə bilər.

**Sual 17. Sənədlər hansı formatda yüklənməlidir?**

Sənədlər **JPG, PNG, PDF** hər üç formatda yüklənə bilər.

**Sual 18. Bakalavr diplomu ilə təkrar orta ixtisas təhsilinə qeydiyyat edə bilərəm?**

Xeyr, edə bilməzsiniz. Bakalavr diplomu ilə təkrar ali təhsilə, subbakalavr diplomu ilə isə təkrar orta ixtisas təhsilinə müraciət edə bilərsiniz.

CamScanner ile tarandı